# POL STRETERN

# HAYDEGGERLƏ 90 DƏQİQƏ

Tərcüməçi:

Çinarə Məhəmməd

qanun nəşriyyatı

PAUL STRATHERN

# HEIDEGGER IN 90 MINUTES

Böyük alman filosofu Martin Haydeggeri ötən əsrin ən ziddiyyətli filosofu hesab etmək olar. Çünki onun dövrü kəskin fikir ayrılıqları ilə zəngin idi. Haydeggerin yaratdığı cərəyanın əsas sualı belə formalaşmışdı: "Varlıq nədir?". Bu suala analiz vasitəsilə cavab vermək mümkün deyildi. Çünki belə suallar məntiq çərçivəsində deyil. Cavab üçün yeni növ fəlsəfə lazımdır. Haydegger öz həyatının məqsədini məhz bunda görürdü.

Kitab Haydeggerin həyat və fəaliyyəti haqqında vacib məlumatları yığcam şəkildə təqdim edir. Qısa zamanda daha bir maraqlı filosofu tanımaq imkanı yaradır.

**PAUL STRATHERN HEIDEGGER IN 90 MINUTES**
**POL STRETERN HAYDEGGERLƏ 90 DƏQİQƏ**
Bakı, Qanun Nəşriyyatı, 2023, 80 səh.

Janr: non-fiction/bioqrafiya
Ölçü: 120x185 mm
Qapaq: yumşaq
Çapa imzalandı: 27.04.2023

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Çinarə Məhəmməd
Korrektorlar: Yeganə Kərimzadə, Lalə Əmirova
Texniki redaktor: Bağırova Gülüstan
Mətn dizaynı: Sevil Rafail
Qapaq dizaynı: Rafail Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-606-6

© Qanun nəşriyyatı, 2023
© Chicago: Ivan R.Dee, 2002 - Heidegger

Bu kitabın Azərbaycan dillinə tərcümə və yayım hüquqları “Qanun Nəşriyyatı”na məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

# Giriş

Haydeggeri XX əsrin ən ziddiyyətli filosofu adlandıra bilərik. XX əsrin birinci yarısında bu dövrə qədər görünməyən fəlsəfi fikirlərin müxtəlifliyi müşahidə olunurdu. Fakt olaraq bir-birinə heç bir uyğunluğu olmayan iki məktəb formalaşmışdı və onların arasında hər hansı bir ciddi dialoqdan söz belə gedə bilməzdi. Birinci cərəyanın nümayəndələri öz apponentlərinin ideyalarına mütləq absurd kimi baxırdılar. İkincilər isə hesab edirdilər ki, digər qrupun nümayəndələri, ümumiyyətlə, fəlsəfənin mənasını anlamırlar. Razılaşmadan söz gedə bilməzdi.

Fəlsəfi baryerin bir tərəfində əsas yaradıcısı Vitgenşteyn hesab olunan Linqvistik analiz dururdu. Adından göründüyü kimi, bu fəlsəfə terminologiyada xüsusi ciddiliyin tərəfdarı idi. Fəlsəfi problemlər sözlərin düzgün olma-

yan tətbiqinin nəticəsi hesab edilirdi. Yəni sözlər işlədilməsi lazım olmayan kontekstdə işlədilir ki, nəticədə problem "düyünü" yaranırdı. Amma "düyün" müvafiq analiz vasitəsilə açılan kimi, problem də həll olunurdu. Misal üçün belə bir sual götürək: "Varlığın mənası nədir?" Linqvistik analiz nöqteyi-nəzərindən belə sual sadəcə düzgün deyil. Nə üçün? Çünki burada "məna" sözü düzgün tətbiq edilməyib. Varlığın məna daşıması üçün bu məna hər hansı bir formada varlıqdan kənarda mövcud olmalıdır. Amma varlıqdan kənarda mövcud olma mümkün deyil. Necə ki, qırmızı olmayan qırmızı, həqiqət olmayan isə, həqiqi ola bilmir. Bax bu səbəbdən də "Varlığın mənası nədir?" sualının cavabı yoxdur.

Əsasını Haydeggerin qoyduğu digər cərəyan isə, tam olaraq linqvistik cərəyanın əksi idi. Burada əsas sual belə formalaşmışdı: "Varlıq nədir?". Başqa sözlə ifadə etmiş olsaq "Mövcud olmaq nə deməkdir?" və ya "Varlığın mənası nədir?". Haydegger və ekzistensial cərəyan üçün bu sualı "analiz vasitəsilə aradan qaldırmaq" mümkün deyildi. Belə suallar məntiqə və ya təfəkkürə tabe deyildilər. Onlar daha dərində yerləşirlər. Bizim varlığımız fun-

damentaldır: o rasional təfəkkürə və linqvistik analizə münasibətdə ilkin olandır. O ilkin olaraq hər bir canlı varlığa "verilmişdir".

Varlıq və mövcudluq haqqında belə sualları verə bilmək üçün mütləq yeni növ fəlsəfə olmalıdır. Haydegger öz həyatının məqsədini məhz bunda görürdü.

## Haydeggerin həyatı və əsərləri

Martin Haydegger 1889-cu il 26 sentyabrda Almaniyanın cənubunda Messkirx kəndində dünyaya gəlmişdir. Bu yer Boden gölü və İsveçrə sərhədlərindən cəmi iyirmi kilometr uzaqlıqda idi. Burada xalqın içindən olan kənd insanları yaşayırdı və onların həyat tərzi uzun illər ərzində dəyişməz qalırdı. Haydeggerin ailəsi kiçik fermerlik və sənətkarlıq ilə məşğul olurdu. Onun atası çəlləkçi və yerli katolik kilsədə gözətçi idi. Anası isə qonşu kənddən olan fermer qızı idi. Martin uşaqlıq yaşlarından dinə maraq göstərirdi və onun keşiş olacağını zənn edirdilər. Orta məktəbi bitirəndən sonra Martin yezuit monastırında fəaliyyətə başlayır və 1909-cu ildə Frayburq Universitetinin Teologiya fakültəsinə daxil olur. Amma tezliklə Haydegger anlayır ki, ona maraqlı olan din yox, fəlsəfədir və iki ildən sonra o fəlsəfə

fakültəsinə keçir. Bu çox cəsarətli addım idi. Çünki o kilsə təqaüdündən məhrum olurdu, amma bunu gözə alırdı. Bu dövrdə artıq universitet rəhbərliyi gəncin istedadını qiymətləndirə bilmişdi. Nəticədə ona kiçik məbləğdə qrant ayrılır və Haydegger bu qazancı fərdi dərslər ilə tamamlayır.

Universitet illərində Haydegger tələbələr üçün adət halını alan şən yığıncaqlarda və səsli-küylü davalarda yer almırdı. Gənc Martin özünü bütövlükdə mənəvi və fəlsəfi suallar ilə məşğul etmişdi. Sadə kənd oğlanını Frayburqda qarşılaşdığı müasir həyatın gerçəklikləri çox dərindən həyəcanlandırmışdı. Bu şəhər kiçik olsa da, Şvarsvald dağ silsiləsinin yaxınlığında yerləşdiyi üçün özünə çoxsaylı turistləri cəlb edirdi. Frayburqun sakinləri və tələbələr o zaman üçün Almaniyanı bürümüş intellektual və mədəni cərəyanların mərkəzində olduqları üçün fəxr edirdilər. XIX əsrin son on, XX əsrin isə ilk on illiyində ölkə çox sürətlə sənaye ölkəsinə çevrilirdi. 1871-ci ildə alman torpaqlarının birləşməsi sona çatdı və Almaniya imperiyası formalaşdı. Bu dövrdə ümumi əhalinin 70 faizi kəndlərdə yaşayırdı. 1910-cu ildə isə bu 40 faizə qədər azal-

mışdı. Köhnə adətləri olan aqrar Almaniya orta əsrlərdən bəri heç bir dəyişikliyə məruz qalmamışdı. İndi o müasir şəhərlərdən – avtomobillər, elektrik və ağır sənayenin olmaması səbəbindən geri qalırdı. Qərb mədəniyyəti tam, hərtərəfli urbanizasiya yaşayırdı.

Bu cür böhranı fəlsəfə də yaşayırdı. XIX əsrin əvvəllərində Almaniya Avropaya Kant və Hegel kimi məşhur filosoflar verdiyi üçün fəxr edirdi. Onlar hər şeyi əhatə edən metafizik sistem yaratmışdılar ki, bu sistem aləmi, onun tərkib hissələrini, eləcə də, insanı da izah edirdi. Bir çox mənada bu cür sistemlər Allahı əvəz etməyə başlayırdı (Nitsşe yox, məhz Hegel ilk dəfə "Allah ölüb" ifadəsini işlətmişdi). Bu sistemlər aləmin təsvir vasitəsi olub, metafizikaya, yəni bizim maddi dünyanı qavramağımızın xaricində inanc və fərziyyələrin olmasına söykənirdi (metafizika hərfi mənada "fizikanın sərhədləri xaricində" deməkdir). Ancaq Kant, Hegel, hətta Şopenhauer kimi filosofların işləyib hazırladığı möhtəşəm və qeyri-adi ciddi metafizik sistemlər tarixə qovuşmuşdu. Nitsşe 1900-cü ildə ölmüşdü (həyatının son illərini o neyrosifilis ilə müşahidə olunan əqli pozğunluqla keçirmişdi). Ancaq bu zamana qədər